Azərbaycan Dövlət Iqtisad Universiteti (UNEC)

Təsdiq edirəm:

"Biznes və logistika" kafedrasının
müdiri: i.e.n.dos., M.Ə.ƏLİYEV

9 sentyabr 2025-ci il

**«Transmilli korporasiyalar »**
fənni üzrə
(Sillabus)

## I. Fənn haqqında məlumat

Fənnin kodu: 01118
Fənnin növü: seçmə
Tədris ili:2025/2026
Tədris semestri: payız
Fakültə: İqtisadiyyat və idarəetmə
Qrup: 272 /273
Tədris yükü: 90 saat (30 mühazirə, 60 məşğələ)
Kredit sayı: 8 (səkkiz)
Kafedra: Biznes və logistika

## II. Müəllim haqqında məlumat

Fənni tədris edən müəllim: ***Dos.V.T.Səfərova***
E-mail ünvanı: ***vseferova00@gmail.com***
İş telefonu: (012) 440-89-62

## III. Fənnin təsviri

"Transmilli Korporasiyalar" fənni müasir qlobal iqtisadi sistemin və dünya təsərrüfatı mexanizminin ən mühüm elementlərindən birinə – transmilli şirkətlərin fəaliyyətinə həsr olunur. Müasir qloballaşma şəraitində TMK-lar dünya

iqtisadiyyatının həlledici subyektləri və eyni zamanda qloballaşma prosesinin hərəkətverici qüvvəsi kimi öyrənilir. Bu fənnin tədrisində TMK-ların təbiəti, təkamülü, fəaliyyəti, transmilliləşmə proseslərinin səbəbləri və nəticələri öyrənilir. Bu fənnin tədrisində üç əsas metodoloji problem öz həllini tapır: Birincisi, TMK-nın mahiyyətinin öyrənilməsi, təsnifatı, dünya iqtisadiyyatında transmilliləşmə proseslərinin inkişafının qiymətləndirilməsi; İkincisi, TMK-ın iqtisadiyyatının əsasları-beynəlxalq ticarət, istehsal, investisiya fəaliyyəti, o cümlədən beynəlxalq firmadaxili əlaqələr və TMK-ın transfer qiymətləri mexanizmləri; Ücüncüsü, TMK-ın idarəetmə fəaliyyəti və nəzarət formaları.

## IV. Kursun əsas məqsədi və vəzifələri

**"Transmilli korporasiyalar" fənninin əsas vəzifələrini aşağıdakılar təşkil edir:**

- Transmilli korporasiyaların dünya iqtisadiyyatında və beynəlxalq iqtisadi münasibətlərdə yeri və rolunun öyrənilməsi;
- Transmilli korporasiyaların fəaliyyətinin nəzəri əsaslarının və inkişaf təkamülünün öyrənilməsi;
- TMK-ın idarəetmə strukturunun və onun regional spesifikasının öyrənilməsi;
- ABŞ, Qərbi Avropa və Yaponiyanın qabaqcıl TMK-nın fəaliyyətinin və dünya iqtisadiyyatında rolunun öyrənilməsi;
- Yeni Sənaye ölkələrinin TMK-nın üstünlükləri və beynəlxalq biznesdə rolunun artması meyllərinin öyrənilməsi;
- ÇXR-nın TMK-larının dünya iqtisadiyyatında rolunun genişlənməsi və fəaliyyət sahələrinin öyrənilməsi;
- Mərkəzi və Şərqi Avropada və Rusiyada biznesin transmilliləşməsi proseslərinin və inkişafının əsas istiqamətlərinin öyrənilməsi;
- Müasir qloballaşma və tranmilliləşmə prosesləri haqqında beynəlxalq illik hesabat materiallarımdan, beynəlxalq analitik nəşrlərdən və qiymətləndirmə metodikasından istifadə edilməsi ;
- Dövlət-transmilli korporasiya münasibətlərinin tənzimlənməsi məsələlərinin öyrənilməsi;
- İnkişaf etməkdə olan ölkələrdə TMK-ın rolu və qarşılıqlı əlaqələrin spesifik xüsusiyyətlərinin öyrənilməsi;
- Yeni nəsil TMK-ların formalaşması və 4-cü Sənaye inqilabına, "Yaşıl iqtisadiyyata" keçid proqlemlərinin öyrənilməsi;
- Azərbaycanın qabaqcıl TMK-larla qarılıqlı faydalı əlaqələrinin perspektivlərinin öyrənilməsi.

## V. Bacarıq və səriştələrin formalaşması

"Transmilli korporasiyalar" fənnini öyrənməyə başlayan tələbələr sosial və iqtisadi inkişafın əsas qanunlarını, müasir biznes strukturlarının açıq sosial-iqtisadi sistemlər kimi formalaşmasını başa düşməli, korporativ idarəetmə və sosial məsuliyyət anlayışlarını, prinsiplərini, metodlarını bilməli, beynəlxalq biznes sisteminin fəaliyyətinə təsir edən xarici və daxili mühit amillərini təhlil etməyi bacarmalı, təfəkkür mədəniyyətinə və analitik informasiya ilə işləmək qabiliyyətinə malik

olmalıdır. Fənin tədrisi nəticəsində:

- Tələbələr transmilli şirkətlərin mənşə ölkəsində idarəetmə qərarlarının mərkəzləşdirilməsi və onun qəbul edən ölkələrdə iqtisadi, sosial və siyasi strukturlara təsiri haqqında sistemli biliklər əldə edir;
- Tələbələr transmilli korporasiyaların fəaliyyəti haqqında əsas nəzəriyyələri başa düşür, nəzəri biliklərini təkmilləşdirir və transmilli korporasiyaların fəaliyyəti haqqında baza biliklərə malik olur;

- Tələbələr transmilli korporasiyaların ekspansiyası, onların idarəetmə strukturları, biznes mühitinə təsir edən endogen və ekzogen prosesləri və s. təsvir etməyə imkan verən metod və vasitələri tətbiq edə bilir;
- Transmilli korporasiyaların davranışı ilə bağlı beynəlxalq norma və qaydaları təhlil etmək bacarıqları əldə edir.

Beləliklə "TMK" fənninin mənimsənilməsi nəticəsində təhsil alan aşağıdakı peşə səlahiyyətlərinə malik olmalıdır:

**Bilməlidir:** Tələbələr firmanın fəaliyyətinin beynəlmiləlləşməsi prosesinin səbəblərini müəyyən etməli, ona transmilli korporasiyalar nəzəriyyəsi prizmasından yanaşa bilməlidir.

**Bacarmalıdır:** Tələbələr TMK-ların fəaliyyətini nəzəri və empirik tədqiqat üsullarını tətbiq etməklə beynəlxalq biznesə dair peşəkar tapşırıqların icrasını bacarmalıdır.

**Malik olmalıdır:** Bilavasitə Transmilli korporasiyaların fəaliyyətləri ilə bağlı baş verən beynəlxalq iqtisadi prosesləri, meylləri, dəyişiklikləri və bu dəyişikliklərin səbəbləri, miqyası və nəticələrinin ümumiləşdirilməsi qabiliyyətinə malik olmalıdır.

## VI. «Trans milli korporasiyalar »fənninin mövzuları üzrə keçirilən saatların miqdarı

| Sıra № si | Fənnin mövzularının adı | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| | **TRANSMİLLİLƏŞMƏ VƏ İQTİSADİ QLOBALLAŞMA PROSESLƏRİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI** | | |
| 1 | Transmilli şirkətlər: mahiyyəti, təkamülü, tipologiyası və qloballaşma prosesində rolu | 2 | 2 |
| 2 | TMK fəaliyyətinə nəzəri yanaşmaların inkişafı | 2 | 2 |
| | **TMK-LARIN FUNKSİONAL SAHƏLƏRİ VƏ STRATEGİYASI** | | |
| 3 | Beynəlxalq ticarət və xidmətlər sahəsində TMK-ların fəaliyyəti | 2 | 2 |
| 4 | TMK-ın dünya sənayesində rolu və beynəlxalq istehsal fəaliyyəti | 2 | 2 |
| 5 | TMK-ın bazarlara nüfuzetmə formaları və genişlənmə strategiyaları | 2 | 2 |
| 6 | Dünyada birbaşa xarici investisiyalar və TMK-ın rolu | 2 | 2 |
| 7 | TMK-ların yeni texnologiya siyasəti və beynəlxalq texnologiya transferi modelləri | | |
| | **TMK-IN TƏŞKİLATI STRUKTURU VƏ İDARƏETMƏ SİSTEMİ** | | |
| 8 | TMK-ın strukturu, nəzarət və idarəetmə | 2 | 2 |
| 9 | Transmilli strateji ittifaqlar | 2 | 2 |
| – | **TRANSMİLLİ KORPORASİYALARIN BEYNƏLXALQ TƏNZİMLƏNMƏSİ (BMT-NİN DAVRANIŞ NORMALARI)** | | |
| 10 | Dövlət-TMK münasibətləri:tənzimləmə siyasəti, prinsiplər və hüquqi əsaslar | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| | **DÜNYA REGİONLARI ÜZRƏ TRANSMİLLİ STRUKTURLARIN İNKİŞAF MODELLƏRİ** | | |
| 11 | ABŞ, Avropa İttifaqı və Yaponiya TMK-ları | 2 | 2 |
| 12 | Yeni sənaye ölkələrinin TMK-ları və rəqabət strategiyası | 2 | 2 |
| 13 | ÇXR transmilli korporasiyalarının inkişafı: Çin şirkətləri beynəlxalq İKT bazarının liderləri kimi | 2 | 2 |
| 14 | Rusiya TMK-ları və transmilli genişlənmə xüsusiyyətləri | 2 | 2 |
| | **AZƏRBAYCANDA TMK-LARIN FƏALİYYƏTİ VƏ BİZNESİN TRANSMİLLİLƏŞMƏSİ** | | |
| 15 | Transmilli korporasiyaların Azərbaycanda fəaliyyəti və Azərbaycan şirkətlərinin transmilliləşməsi | 2 | 2 |
| | **Cəmi** | 30 | 30 |

« TMK » fənni 90 saat həcmində, 30 mühazirə və 60 saat məşğələ dərsləri ilə nəzərdə tutulmuşdur. Kursun tematikasının strukturu 6 bölmədən ibarətdir:

1) Transmilliləşmə və iqtisadi qloballaşma proseslərinin nəzəri-metodoloji əsasları
2) TMK-larin funksional sahələri və strategiyasi
3) TMK-ın təşkilati strukturu və idarəetmə sistemi
4) Transmilli korporasiyalarin beynəlxalq tənzimlənməsi (BMT-nin davraniş normalari)
5) Dünya regionlari üzrə transmilli strukturlarin inkişaf modelləri
6) Azərbaycanda TMK-larin fəaliyyəti və biznesin transmilliləşməsi

## VII. “TMK” fənninin tematik planı

## VIII. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, müzakirələrin aparılması, komanda şəklində danışıqlar praktikasını öyrənməyə kömək edən kiçik həcmli layihələrin icrası, kiçik qruplarda iş, xüsusi keys nümunələrinin və situasiyaların təhlili və təqdimatların hazırlanması kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatlardan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin və işgüzar kommunikasiya təcrübələrin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya müvafiq seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni seminar dərsləri öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Fənnin mühazirə mətnləri ilə tanışlıq

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında universitetin veb saytındakı tələbə kabinetində yerləşdirilir.

Ara və yekun imtahanlarının suallarının siyahısı universitetin ümumi qaydalarına və müəyyən olunan qrafiklərdə fənnin sillabusuna daxil edilir.

## X. "TMK" fənninin tədrisində istifadə ediləcək tədris materiallarının siyahısı:

**1.** Sillabus;
**2.** Mühazirə mətnləri;
**3.** Təqdimat;
**4.** Seminar dərsi üçün əlavə materiallar;
**5.** Digər bölməsi: fənn üzrə əsas dərslik,əlavə dərslik,internet resursları, mövzular üzrə əlavə resurslar.

## XI. Tövsiyyə olunan əsas ədəbiyyat:

**Əsas ədəbiyyat**

1. Dunning, J.H. and S. M. Lundan, Multinational enterprises and the global economy, L., Addison-Wesley, 2nd., 2008

2. Ietto-Gillies, G., TNC and International Production (Concepts, Theories and Effects), E. Elgar, 2nd ed., 2012

3. Buckley, P., Globalization and the Global Factory, E. Elgar, 2011, 633 p.
4. Forsgren, M., Theories of the Multinational Firm: A Multinational Creature in the Global Economy, E. Elgar, 2nd ed., 2013

## Əlavə ədəbiyyat


5.Charles W.L.Hill International business. Competinq in the Global Marketplace 8 th edition Upper Sddle River, New Jersey
6.Rugman, A. and T. Brewer (eds.), The Oxford Handbook of International Business, Oxford Univ. Press, 2003
7.The Handbook of Globalization, 2011, 2nd ed., E. Elgar, Part III: “Thansnational Corporations” – university library
8.J. H. Dunning, S.M. Lundan: Multinational Enterprises and the Global Economy.
Cheltenham 2008.
9.G. Ietto-Gillies: Transnational Corporations and International Production. Cheltenham 2012.
10. L.S. Welch, G. Benito, B. Petersen: Foreign Operations Methods. Cheltenham 2018.
11. Transnational Corporations Volume 7, Number 1, April 1998, https://unctad.org/system/files/official-document/iteiit9v7n1_en.pdf , s.20-28
12. Transnational Corporations Volume 29, 2022, Number 2, https://unctad.org/webflyer/transnational-corporations-volume-29-2022-number-2
13. Карачев И. А. Транснациональные корпорации в современной мировой экономике : учебно-методическое пособие / И. А. Карачев ; Ярославль : ЯрГУ, 2019. 72 с.
14. Halil SEYİDOĞLU “ULUSLARARASI TİCARET” Anadolu Universitesi, Türkiye, 2019
15. N.Məmmədov, M.Bərxudarov. İqtisadi təhlükəsizlik. Ali məktəblər üçün dərslik.Bakı İqtisad Universiteti, 2006, səh.32-73.
16. Quliyev M.Y. Beynəlxalq istehsal sistemlərinin transformasiyası və müasir sənaye siyasəti modelləri, Monoqrafiya MSV NƏŞR MMC,Bakı, 2022, 244s
17. Quliyev M.Y. Qloballaşma prosesi, iqtisadi transformasiya və dəyişikliklərin idarə olunması (dərs vəsaiti). Bakı: “Müəllim” nəşriyyatı, 2021. - 202 s.


## İnternet resursları


18. UNCTAD: World Investment Report 2023.
19. https://www.socar.az
20. https://www.economy.gov.az/az

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sualüzrə qısa çıxıs hazırlamalı;

Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbə semestr ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır. Davamiyyət tələbənin aktivlik balının toplanmasında əhəmiyyət kəsb edir.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

## XIII. Sərbəst işlər (Qrup işi): nəzərdə tutulmayıb.

XIV. Fənn üzrə qiymətləndirmə

| | | |
|---|---|---|
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

**Tərtib etdi:** **dos.V.T.Səfərova**